MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

QONAQPƏRVƏRLİKDƏ SOSİAL ÜNSİYYƏT MƏDƏNİYYƏTİ:
NƏZƏRİ ƏSASLAR, STRUKTUR KOMPONENTLƏRİ VƏ MÜASİR ÇAĞIRIŞLAR
Arzu Soltan (Həsənli) 96

RƏQS, OYUN VƏ ƏNƏNƏVİ İDMAN MƏDƏNİYYƏTİ ANLAYIŞI VƏ TARİXİ
Rauf Bəhmənli 110

MİLLİ ATÇILIQ MƏDƏNİYYƏTİ VƏ QARABAĞ ATÜSTÜ OYUNU – ÇÖVKƏN
Ramal Nadir 116

PƏHLƏVANLIQ – ƏNƏNƏVİ ZORXANA OYUNLARI VƏ İDMAN NÖVLƏRİ
Xəyyam Orucov 122

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLARDA TEKSTİL NÜMUNƏLƏRİ
Fariz Xəlilli 125

XALÇAÇILIĞIN TARİXİ, REGİONLARA GÖRƏ XALÇA MƏKTƏBLƏRİ,
XALÇANIN MƏİŞƏTDƏ VƏ MƏRASİMLƏRDƏ ROLU, QORUNMA VƏ
YAŞADILMA PROBLEMLƏRİ
Kübra Əliyeva 129

AZƏRBAYCAN KƏLAĞAYISI – MİLLİ KİMLİYİMİZİN İPƏK SİMVOLU VƏ
MƏDƏNİ İRSİMİZİN ZƏNGİN XƏZİNƏSİ
Sulidə Rüstəmova 155

KƏLAĞAYI SƏNƏTİNİN MİLLİ-MƏDƏNİ İDENTİKLİK KONSTEKTİNDƏ SEMİOTİK VƏ
ESTETİK TƏHLİLİ
Röya Talıblı 157

LAHICDA MİSGƏRLİK SƏNƏTİ HAQQINDA
Nəzər Əliyev 161

TƏZHİB SƏNƏTİNİN TARİXİ VƏ MAHİYYƏTİ
Şəhla Xəlilli 165

ŞƏRQİN İNCİSİ OLAN AZƏRBAYCAN MİNİATÜR SƏNƏTİNİN İNKİŞAF YOLU
Nərmin İmanova 169

AZƏRBAYCAN MİLLİ MƏTBƏXİNİN TƏHRİFSİZ ŞƏRHİ
Ceyran Əsgərova 175

XALQIMIZIN SÜFRƏ VƏ MƏTBƏX MƏDƏNİYYƏTİ
Kübra Əliyeva 190

TƏNDİRİN TARİXİ VƏ MƏDƏNİ ƏHƏMİYYƏTİ
Aida İsmayılova 194

ARXEOLOJİ TƏDQİQATLARDA MƏTBƏX, ÇÖRƏK VƏ YEMƏK MƏDƏNİYYƏTİ
Fariz Xəlilli 198

MİLLİ ATÇILIQ MƏDƏNİYYƏTİ VƏ QARABAĞ ATÜSTÜ OYUNU – ÇÖVKƏN

Ramal Nadir
atçılıq üzrə mütəxəssis, jokey və məşqçi
Binə Atçılıq Mərkəzi
https://doi.org/10.30546/19023.2026.1001.263

At və insan. Bu birləşməni, bu eyniləşməni, bu tandemi biz ilk növbədə Kentavrdamı görəcəyik, yoxsa Makedoniyalı İskəndərin öz sevimli atı Busefala süvar olub qarışdığı bir xəlitədə? Bəlkə at üstündə gözləri kor edilmiş bir kişinin igid oğluna ərmağan etdiyi Qırat və Dürat adlı qoşa qanadda axtaracağıq bu hikməti, fəlsəfəni? Yoxsa at belində gündoğandan günbatana kimi dünyanı fəth edən Atillanın, Çingizxanın saldığı cığırlardamı axtaracağıq bu bağlılığın izlərini? Bəli, at insan övladının ilk yol yoldaşı, arxası, köməyi olub. Bilirsinizmi alimlər nə deyib? Onlar vurğulayıblar ki, əgər insan atı bir neçə min il gec əhliləşdirsəydi, biz bu gün hələ də erkən əsrlərdə qalmışdıq. At informasiyanın qloballaşmasında, insanın arzularına doğru, gələcəyə sürətlə irəliləməsində əvəzsiz rol oynamış tarixi bir varlıqdır. At insan üçün həm qida olub, həm nəqliyyat olub, həm əyləncə olub, həm də mənəvi dayaq olub. Çox minilliklər öncə başlanmış bu dostluq tarixin uzun və keşməkeşli yollarında saysız-hesabsız sınaqlardan keçərək insanın məhəbbətini və etibarını qazanmışdır. Onu sevdilər, onu öydülər, namus, qeyrət deyib onun üstündə Cahandar ağalar qovğa etdilər, vətən, torpaq deyib Babəklər, Xətailər, Nadir şahlar onun üstündə qılınc oynatdılar. Rəssamlar onun gözəlliyini tablolara köçürdülər, şairlər şeirlərində, yazıçılar romanlarında sevə-sevə vəsf etdilər. Nə idi axı bu dördayaqlı canlının sehri, mahiyyəti?! O, insanı həmişə ilhama gətirirdi – qanadlı Peqas kimi...

Bəli, at tarix səhnəsinə çıxırdı. İnsanlıq soyuq daş mağaralardan yeni dünyaya çıxanda özü ilə uzun bir yolu sona qədər gedə biləcək, ürəkli, təpərli bir yol yoldaşı tapmışdı. Və insan övladı ona "At" dedi, "At demərəm sənə qardaş deyərəm..." - dedi.

Beləliklə atla insanın dostluğu ilə başlanan möhtəşəm bir dövrə qədəm qoydu bəşəriyyət. Millətlər, toplumlar, cəmiyyətlər formalaşdıqca atlı mədəniyyətlər də vüsət tapmağa başladı. Əski daş dövrünü daha yeni daş-mis dövrü – eneolit əvəz edirdi. Məhz, bu dövrdə insanlar atın digər üstün imkanlarını kəşf etməyə başlayırlar. Eramızdan əvvəl IV-II minilliklər kəsiyində - tunc dövründə atçılıq təsərrüfatı yaranmağa başlayırdı. Məhz, bu dövr atlı mədəniyyətlərin formalaşmağa başladığı zaman idi. Müasir arxeoloji qazıntılar zamanı aşkar edilmiş tapıntılar dünyanın müxtəlif yerlərində atçılığın ilk izlərini ortaya çıxarırdı. Bunların çoxu isə dəmir dövrünə təsadüf edirdi. Atçılığın ilkin beşiklərindən, atçılıq təsərrüfatının, mədəniyyətinin formalaşdığı ən qədim məkanlardan biri də Azərbaycandır. Atların izi ilə getsək, Qafqazlardan başlamış Altay dağlarına, İkiçayarasından başlamış Cənubi Rusiya çöllərinə, Sibirə, Qaradəniz ətrafına kimi uzanan böyük bir məkanda saysız-hesabsız at ilxılarının formalaşdığını görərik.

Artıq iyirminci əsrdə Azərbaycan ərazisində aparılmış arxeoloji qazıntılar, bu diyarın nə qədər qədim insan məskəni olduğunu meydana çıxarmışdı. İnsanla yanaşı atların da izi var idi. Arxeoloqlar D.Hacıyev və S.Əliyevin keçən əsrin 70-ci illərində apardıqları arxeoloji tədqiqatlar nəticəsində qədim yaşayış məskəni olan Azıx mağarasında tapdıqları ocaq yerlərində bir çox vəhşi heyvanların sümükləri ilə yanaşı at sümükləri də aşkar etmişdilər. Bu da onu göstərirdi ki, paleolit dövründə Azərbaycan ərazisində çoxlu sayda at ilxıları mövcud idi.

Professor R.X.Səttarzadə yazdığı "Qarabağ atı" kitabında bildirir: "Abşeronda Keşlə kəndi yaxınlığında yerləşən daş karxanasının kirəcliyində atın baş və çənə sümüklərinin tapılması və bu tapıntıların üçüncü təbəqəyə aid edilməsi burada çox qədim atkimilərin mövcud olmasına sübutdur"...

Professor V.V.Boqaçyov Xırdalan və Balaxanı yaxınlığında tapılmış və dördüncü arxeoloji dövrə aid edilən at sümüklərini araşdırarkən bildirmişdir ki, bu at şərq at tipinə xas baş quruluşuna malik olmuşdur və daha çox Prjevalski vəhşi atına bənzəyir.

Bir sıra tədqiqatçılar Macarıstanda aparılan qazıntılar zamanı əldə edilmiş tunc və dəmir gəmləri tiplərə ayıraraq onları Cənubi Rusiya, Qafqaz, İran və Sibirdən tapılan oxşar nümunələrlə müqayisə etmişlər. Bu müqayisələrdən sonra tədqiqatçılar S.Gallus və T.Horvath müəyyən etmişlər ki, e.ə. VIII-VI əsrlərdə Qafqaz və Alp dağları arasındakı ərazilərdə atçılıq mədəniyyəti mövcud olmuşdur. Gəmlərlə (ağızlıq) birlikdə əldə olunan digər arxeoloji nümunələrdən məlum olmuşdur ki, atçılıq mədəniyyəti Qafqazlardan başlayaraq Avropaya doğru yayılmışdır (S.Gallus, T.Horvath). Bu alimlərin qənaətinə görə at e.ə. 1200-ci illərdə Mesopotamiya ərazilərində əhliləşdirilmişdir və Qafqaza Ön Asiyadan keçmişdir. Bir sıra alimlərin vurğuladığı Qafqaz variantı məntiqi olaraq məhz, Azərbaycanın Qafqaz dağları ilə qovuşan Kür-Araz ovalığını nəzərdə tuta bilər. Buna misal olaraq demək olar ki, Azərbaycanın Cəlilabad bölgəsində yerləşən Əlikömək-Təpə ərazisindəki arxeoloji tapıntılar (arxeoloq F.R.Mahmudov, 1971-73) burada e.ə. V-IV minillikdə at sürülərinin olmasından xəbər verir.

Qafqaz variantını eramızdan əvvəl 1000-1500 – cü illərə aid edilən Mingəçevir yaxınlığında tapılmış (Arxeoloq S.M.Qazıyev) at sümükləri və minik ləvazimatları da (bu ləvazimatlar tuncdan idi) sübut edir. Qeyd edilir ki, tapılmış məişət əşyalarında təsvir olunmuş at obrazları şərq at tipinin xüsusiyyətlərini əks etdirir. Bu atlar kiçik başlı, uzun boyunlu, nazik ayaqlı kimi təsvir edilir. Eramızdan əvvəl VI-I əsrə aid edilən bu kimi nümunələr Dağlıq Qarabağın Dolanlar kəndində də tapılmışdır. Bu at tipi qədim Xəzəryanı at "cinsi" olan Nisey, Nis atları (Manna-Midiya at populyasiyası - bozqır və ya kombinə edilmiş dağətəyi, dağ-bozqır tipi) idi ki, onun da əsasında Qarabağ atları (həmçinin, Orta Asiya atlarının Midiya-Nisey atlarına təsiri ilə türkmən axaltəkələri) yaranmışdır.

Tarix səhnəsində atın belinə qalxan ilk insanlar qədim türklər oldu. Qərb alimlərindən W.Schmidt, O.Menghin, W.Koppers, F.Flor atın Türküstan ərazilərində əhliləşdirilməsi fikrini irəli sürmüşlər.

O.Menghin bildirmişdir ki, Qırğız çölləri və Qobi vadisi vəhşi atın ilk vətəni hesab edilməlidir.

F.Flor "Haustiere und Hirten kultur" əsərində bildirmişdir ki, atlar türklərin əcdadları tərəfindən əhliləşdirilərək insanların istifadəsinə verilmişdir.

W.Schmidt də bildirmişdir ki, Orta Asiyada yaşayan və çox qədim zamanlardan ovçuluqdan heyvanların əhliləşdirilməsinə keçən ilk insanlar türklər olmuşlar. W.Schmidt-ə görə atı ilk dəfə türklər əhliləşdirmiş və tarixdə ata minən ilk insanlar türklər olmuşdur.

Bizans mənbələrində (İmperator Heraklos və Leon VI Filosofusun əsərləri) göstərilir ki, türklər at üstündə həyat keçirirlər, onların atsız hərəkətini təsəvvür etmək çətindir.

İ.Zichy, W.McGovern, R.Grousset kimi tədqiqatçılar tərəfindən atlı-köçəri həyat tərzinin e.ə. V-IV əsrlərdə meydana çıxdığını vurğulayan fikirlərə qarşı etiraz edən müəlliflər (W.Eberhard və s.) atlı-köçəri mədəniyyətin təməlinin e.ə. I minilliyin başlanğıcında iskitlər tərəfindən qoyulmasına diqqət çəkdilər.

Tanınmış Avstriya-Alman antropologu və etnoqrafı W.Koppers "İlk Türklər və ilk Hind-Arilər" əsərində bildirmişdir: "Atın əhliləşdirilməsi və atlı-köçəri mədəniyyətinin ortaya çıxması ilk türklərlə bağlanmalıdır. Bəşər tarixində əldə edilən bu müvəffəqiyyət digər mədəniyyətlərin inkişafında böyük rol oynamışdır".

Turan atlarının bir qolu olan Oğuz atlarının (Nisey, Manna-Maday) Xəzəryanı ərazilərdə meydana

çıxmasını sübut edən çoxlu tarixi dəlillər vardır:

Midiya ərazilərinə 4-cü dəfə soxulan (e.ə. 713-cü il) Assuriya hökmdarı II Sarqon Midiyadan vergi şəklində 4000 baş cins at və çoxlu mal-qara tələb etmişdir.

Assuriya padşahları I Tiqlatpalasar (eramızdan əvvəl VII əsr) və III Salmanasar (eramızdan əvvəl IX əsr) Urmiya gölü kənarı bölgələrdən çoxlu at alırmışlar. Urartu naxış yazıları Van dövlətinin mərkəzinə Zaqafqaziyadan çox zaman atların gətirilməsini göstərir. Eramızdan əvvəl IV əsrdə yaşamış qədim tarixçi Herodot yazır ki, Midiyada Nisey adlanan böyük bir ərazidə çox görkəmli atlar olmuşdur. Qədim coğrafiyaşünas və tarixçi Strabon (e.ə.63-b.e.23) göstərir ki, padşahların istifadə etdiyi ən yaxşı və ən iri Nisey atlarının vətəni Midiya olmuşdur.

Siciliyalı Diador qeyd edir ki, Midiyada Raqi (Raqa, Rey) şəhərinin yaxınlığında Nisey ilxılarında 160 min başa qədər çox yaxşı cinsdən olan atlar yetişdirilirmiş.

Atropatena süvariləri öz döyüş qabiliyyəti ilə qonşu dövlətləri heyrətə gətirmişdir. Makedoniyalı İskəndər İran üzərinə yürüş edəndə sərkərdə Atropatla ittifaq yaratmış və Midiyalıların süvari dəstələrindən istifadə etmişdir. İskəndər Midiyadan 50'000 baş at seçərək öz ordularına göndərmişdir. Arrian yazır: "Midiya satrapı Atropat İskəndərə 100 nəfər amazonka bağışlamışdı. Onlar kişi geyimi geymiş, yüngül silahlarla yaraqlanmışdılar".

Əslində antik tarixçilərin və bir sıra tarixi araşdırmaların ortaya çıxardığı nəticələrdən müəyyən edilmişdir ki, Nisey atlarının əsas vətəni Urmiya (Urmu) gölünün ətrafı və Səhənd dağının qərb yamacları olmuşdur.

Klavdi Elian bildirir ki, Kaspianada (Xəzərətrafı ərazilər, Atropatena) çoxlu öküz və at sürüləri vardır.

Herodot İran dövlətinə qədər bu ərazilərdə güclü, hündürboy və yaraşıqlı atların olduğunu vurğulayır.

Strabon yazırdı ki, miniciliyə və atçılığa olan ehtiras iranlılara midiyalılardan keçmişdir.

Ümumiyyətlə dünya atlı mədəniyyəti eramızdan əvvəl beşinci minillikdən başlayaraq qədim türk tayfalarının (prototürklərin) formalaşması ilə paralel getmişdir və sonrakı dövrlərdə dünyanın müxtəlif yerlərinə yayılaraq ayrı-ayrı atlı mədəniyyətlər formalaşdırmışdır. Misal üçün qədim Yunan mədəniyyətinə varsaq görərik ki, burada heyvani üsluba böyük yer verilmişdir. Əfsanələr, əsatirlər heyvanların sakral, mistik obrazlarını və hətta astral varlıqlarını ehtiva edirdi. Yunan mifologiyasındakı Kentavr? Bu ki, iskit döyüşçüsü idi, ellinlər onu at belində tam, bütöv bir varlıq kimi görərək, onun qorxunc və möhtəşəm kölgəsində bu cür əsatirlər yaratmışlar.

Və ya qədim yunan mifologiyasında kı qanadlı at obrazı, ilham pərisi – Peqas. Görün nə qədər uyğunluq və bağlar var Azərbaycan, Oğuz kökləri ilə. Alı kişinin oğlu Rövşənə verdiyi iki baş atın qırx gün qaranlıq tövlədə saxlanmasını və onların qanad çıxaracağını bildirməsi, başqırdların Akbuzat (qanadlı Ağ-boz at) dastanı ilə oxşarlığı, qıpçaq türklərinin eposlarındakı qanadlı "Tulpar"lar, yaqut (saxa) türklərində insanın qanadlı atla göydən yerə enməsi inancı görün nələrdən xəbər verir!? Atın səmaviləşdirilməsi, onun Tanrı tərəfindən yerə göndərilməsi inancı qədim zamanlardan insanların bu canlıya necə rəğbət göstərməsinin dəlilidir.

Türk soylu xalqların atçılıq mədəniyyəti özünü bu xalqların şifahi xalq nümunələrində, adət-ənənələrində, inanc və ayinlərində göstərir. Oda sitayiş etmiş azərbaycanlıların qədim yurdlarında günəşə qızılı at qurban kəsərdilər. Oda sitayiş türk şamanizmində də müşahidə edilir. Qədim türk dastanlarında, əsatir və əfsanələrində sehirli, əfsanəvi atlar təsvir edilir. İgidləri ölümdən qurtaran Tulpar, Akbuzat, Qırat, Dürat, Şimşək, Ağ-boz at, Keçi başlı keçər ayğır, Toğlu başlı toru ayğır, Alapaça, Qarağuc, Qazlıq at kimi zoonimlər türk dastanlarında geniş yer tutur. Qanadlı at obrazları olan Tulpar (Tolpar), Akbuzat (Ağ-boz at), Qırat və s. obrazlar dəryadan peyda olmuş və sonralar

onların qanadları çıxmışdır. Bu isə qədim türk dastanlarının fəlsəfi mahiyyəti ilə uzlaşaraq yeraltı dünya ilə (yer, su) yuxarı dünya (göy tengri) arasında mediator rolunu təcəssüm etdirir.

"At muraddır", "At igidin yaraşığıdır", "İgid odur atdan düşüb atlana, igid odur hər zəhmətə qatlana", "Yaxşı at özünə qamçı vurdurmaz" – deyib babalarımız.

Ümumən türk dünyasında atla bağlı çoxlu deyimlər vardır: "Atı qamçı qovar – igidi həya", "Ağıllı atını təriflər, yarımçıq – arvadını, axmaq da öz-özünü", (Başqırd); "Dayçanı təriflə, ancaq ata min", "At alırsan - aulla məsləhətləş, arvad alırsan – qohumlarla" (Qaraqalpaq); "Qaçağan atın təri qurumaz, ərköyünün göz yaşı", "Döyüş atı döyüşdə gərəkdir, qaçağan – hər gün" (Qırğız); "Atın var – qanadın var, inəyin var-qonağın var", "Atını qırmancla vurma, yulafla vur" (Tatar); "At minib ad ara", "Atına baxan ardına baxmaz" (Türk) və s.

Bütün bu bilgiləri nəzərə alaraq bir daha demək olar ki, at və atçılıq mədəniyyəti bütün türk dünyasının və eyni zamanda Azərbaycan xalqının həyatında çox-çox qədim zamanlardan kök salmış və dünya atçılığına əvəzedilməz töhvələr vermişdir.

Dilbər Qarabağın tarixi onun qızılı atlarının ayaq izləri ilə doludur. Azərbaycanın bu ecazkar guşəsinin gözəlliyi, ab-havası, meşəsi, düzü, dağı bu cür gözəl canlılar üçün necə məkan olmaya bilərdi!? Çox qədimdən başlayan bu yaradılışa elimizin igid oğlu sarıcalı Pənahəli xan Cavanşir yeni bir həyat, yeni bir avaz qatır. Hər şey Nadir şahın ilxılarından başlayır...

İranı idarə edən Nadir şah Əfşar etnik olaraq türk əfşar boyundan idi. Nadir şahın tövlələrində türkmən axaltəkə atları çox idi. Bu atlarla yanaşı ərəb və Azərbaycan atları da kifayət qədər idi. Məlumdur ki, ərəb atlarının yaradılmasında da qədim Azərbaycan atlarından istifadə edilmişdir. Nadir şahın dövründə atçılıq sürətlə inkişaf edirdi. Müasir Qarabağ atlarında gördüyümüz valehedici qızılı-kürən rəng geniş yayılmışdı. Bu dövrdə Azərbaycanda at yarışlarının, o cümlədən çövkən oyunlarının keçirilməsi kütləvi hal almışdı.

Böyük at həvəskarı olan Pənahəli xan Qarabağa gələrkən özü ilə Nadir şahın atlarından da gətirir. Məhz, bu damazlıq sərvət qarabağ atlarının yeni tiplərinin yaradılmasında istifadə olunur.

Mirzə Camal Cavanşır Qarabağı "Qarabağ tarixi" əsərində yazır:

"Xanın yaxşı atları, heyvanı və çoxlu ilxısı var idi. Xanın ilxısı İran və Rum vilayətlərində belə böyük şöhrət tapmışdı. Mərhum xanın atlarının çoxu mərhum Nadir şahın atları və ilxısının cinsindən idi. Xan onları Azərbaycan vilayətlərindən, Şahsevən, Şəqaqi və Xorasan xanlarından alıb gətirmişdi. Təqribən üç-dörd min və bəlkə daha çox balalayan madyanı, xüsusi cins ayğırları var idi...".

19-cu əsrdə Qarabağa səyahət etmiş məşhur rus rəssamı V.Vereşagin xan tövlələrində olmuş və Qarabağ xanlarının qızılı atlarına valeh olmuşdur. O, öz məftunluğunu bildirərək gündəliyində yazmışdır: "Həyatımda gördüyüm ən gözəl atlar Şuşada Cəfərqulu xanın zavoduna məxsus idi. Mən heç bir yerdə belə atlar görməmişdim. Mən cins ayğırlardan birini canlı olaraq baxıb çəkdim".

Xanlığın müstəqilliyi dövründə və Rusiya imperiyası dövründə Qarabağda at yarışları və atüstü oyunlar geniş vüsət tapmışdı. Çövkən, sürpapaq, cıdır yarışları bunlardan ən çox yayılanlar idi. Qarabağ xanları Şuşa yaxınlığındakı Cıdır düzündə cıdırlar və çövkən yarışları keçirirdilər. Təbii ki, bu yarışlarda daha çox qarabağ atlarından istifadə edilirdi. Çünki qarabağ atları həm davamlı, həm sürətli, həm dayanıqlı, həm də çevik idi. Bu atların gözəl bədən quruluşu və rəngi yarışları daha da gözəlləşdirirdi. Qarabağ atının ortaboylu olması çövkən oyununda topu uğurla vurmağa şərait yaradırdı. Həmçinin xoş xasiyyəti və insanı başa düşməsi oyunçu ilə sıx vəhdət yaratmağa səbəb olurdu. Təbii ki, 19-cu əsrdə, artıq Qafqaza gətirilmiş ingilis atları və digər hündürboylu və dayanıqsız atlarla çövkən oynamaq uğursuz ola bilərdi. Amma qarabağ atlarının yerində ani dayana bilməsi, cəld

geri dönməsi, yerində fırlanması çövkən oyununda üstünlük qazanmağa şərait yaradırdı. Qarabağ atının bu xüsusiyyətləri onun dağ şəraitində yetişdirilməsi ilə bağlıdır. Dağlarda dar keçidlər, uçurumlar və digər relyef xüsusiyyətləri burada yetişdirilən atlarda dayanıqlıq, müvazinət, yerindən sürətlə qaçıb ani dayana bilmək qabiliyyəti (çövkən üçün ən vacib xüsusiyyət) formalaşdırırdı.

Uzun tarix boyu Azərbaycanda gedən proseslər, hərəkətlər nəticədə nəyə gətirib çıxarmışdır? Bütün bu hadisələr fonunda zəngin mədəniyyət, incəsənət, sənətkarlıq, aqrar mədəniyyət inkişaf edirdi. Artıq, əyləncə xarakterli səhnələşdirilmiş ayinlər, tamaşalar, oyunlar meydana çıxırdı. Türkdilli xalqlar hal-hazırda da öz xalq oyunlarının rəngarəngliyi və çoxluğu baxımından öndə dururlar. Bu, atçılıq mədəniyyətinə də aiddir. Əslində isə bu tələbat hansı səbəbdən yaranmışdır və necə reallaşmışdır? Türkdilli xalqların qədim idman oyunları hansı səbəbdən meydana gəlmişdir? Buna gətirib çıxaran ehtiyac nə idi?

Köçəri həyat sürən (yalnız bir diyardan o birinə deyil, həmçinin öz ulusu daxilində) türklər əlamətdar günlərdə, bayramlarda və ya hərbi qələbələr zamanı imitasiya xarakterli səhnələşdirilmiş tamaşalar göstərərdilər və bununla da baş vermiş olayları təqlid edərdilər. Buna misal olaraq Orta Asiyada, Qafqazda, Anadoluda yayılmış at üstündə güləş, alaman-bayğa cıdırları, çövkən, çöğen, ulak-tartış, gök boru, kok par, sürpapaq, papaq, qız-qov, kız-kuu, kız-kuumay, baharbənd, yaylıq, cirit və s. atüstü oyunlarını müəyyən real səhnələrin təqlidi hesab etmək olar. Misal üçün, gök-börü ("boz qurd") oyunu qurdun keçini alıb aparması kimi səhnəni təqlid edir və özündə ov mahiyyətini daşıyır. Cirit oyunu (at üstündə nizə atma) döyüş səhnəsini təqlid edir.

Güman etmək olar ki, çövkən oynamaq ehtiyacı tərəkəmələrin (ərəbcə "təraküma" – türkmənlər. Oğuz türkləri olub köçəri həyat tərzi keçirirdilər) çobanlıq ehtiyaclarından əmələ gəlmişdir. Belə ki, yaylaqlarda, dağlarda və köç zamanı çobanlar çevik və dözümlü atlarında sürüləri apararkən sürüdən yayınan qoyunu tutmaq üçün atı çaparaq ona çatmış və başı əyri çomaqla (Dədə Qorqud dastanı) onun qıçından tutmuşlar. Bu cür "qarmaqlı" çomaqlara indi də rast gəlmək olur. Daha bir ehtiyac – qoyunu sürüdən ayırmaq fəndi də öz çətinliyi ilə diqqəti cəlb edir. At üstündə və ya piyada olan çoban əlindəki çomaqla sürüdən qoyunu ayırar və qoyun qaçdığı təqdirdə onu "yaxalayıb" əyri başlı çomaqla ayağından tutarmış. Güman etmək olar ki, bu təsərrüfat ehtiyacı get-gedə bayramlarda və şənliklərdə imitasiya, təqlid olunmuş və çövkən kimi maraqlı bir oyuna çevrilmişdir. Elə oyunun dinamikliyi və emosionallığı da tərəkəmə çılğınlığından xəbər verir. Lakin, sonralar çövkən yüksək zümrənin də məşğuliyyətinə çevrilmişdir. Çox güman ki, ilk zamanlarda topu qoyun dərisindən hazırlanmış dəyirmi bağlama əvəz etmişdir. Onun içinə isə at tükü doldurulmuşdur. Tək bir çobanın əyləncəsi kimi marağa səbəb olan bu oyun nəhayət ki, iki və daha çox oyunçunun iştirakı ilə keçirilmişdir. Zaman keçdikcə çövkənə yeni əlavələr edilir və bu atüstü oyun maraqlı və strategiyalı bir idman oyununa çevrilirdi. Çövkənin inkişaf etdiyi tarix boyu qarabağ atları da təkmilləşərək bu oyunun ən mahir ifaçıları kimi tanınır. Çılğın və emosional bir dramaturji əsəri xatırladan çövkəndə hər bir oyunçunun öz rolu və ampluası sezilir. Burada komandaların üz-üzə durmuş və sanki döyüşə hazırlaşan iki qoşunu imitasiya etməsi, əslində isə oyunun yarışma mahiyyətli revanş (əvəzçıxma) çərçivəsində ifa edilməsi, üstünlük məqsədi və liderlik hissi çövkəni futbol qədər strateji bir oyuna çevirir. Çövkən oyunundakı dinamiklik, hərəkətlər yığımı o qədər boldur ki, tamaşaçını özünə cəlb edir və yormur. Məhz, bu keyfiyyətlərinə görə çövkən Azərbaycan xalqının mədəni həyatında özünə geniş yer tapırdı. El bayramlarında, şənliklərdə insanlar bir yerə toplaşır və digər milli oyunlarla birgə çövkən tağımlarının oyununu seyr edirdilər...

Çovqan oyununun qədimliyi barədə kifayət qədər məlumat vardır.

Belə güman edilir ki, çövkən oyununa oxşar oyun e.ə. 600-cü ildə keçirilmişdir. Bu oyunda iranlılarla türkmənlər görüşmüş və oyun sonuncunun qələbəsi ilə başa çatmışdır. Bildirilir ki, ilk dəfə ağacla top oyununa bənzər elementlər qədim Şumer mədəniyyətində aşkar edilmişdir, lakin ağac və topla

oynanılan sistemli bir oyun kimi çövkən orta əsrlərdə oğuzların yayıldığı ərazilərdə formalaşmışdı. Teymurilər dövründə Orta Asiyada çövkən daha çox yayılmışdı. İndi də Səmərqənddə Teymurilər dövründən qalmış çövkən meydançalarının izinə rast gəlmək olur. Xalq təsviri sənətini, dekorativ-tətbiqi sənət növlərini, o cümlədən xalçaçılıq mədəniyyətini araşdırdıqda görürük ki, həm Qarabağ, həm də Təbriz sənət məktəbində atlı tematikaya xüsusi yer verilmişdir. Bu mənada Təbriz miniatür məktəbi maraq doğurur. Atların iştirakı ilə ov səhnələri, çövkən oyunu ilə bağlı səhnələr miniatürlərdə özünə yer tapmışdır. N.Gəncəvinin "Xəmsə" toplusunda, xüsusilə də "Xosrov və Şirin" poemasında əsərin qəhrəmanlarının çövkən oynaması səhnələri canlandırılır. Mahmud Kaşğarlı "Divani Lüğəti´t Türk" əsərində bildirmişdir ki, "çoğen", "çevgen" sözləri topu çəkmək üçün istifadə edilən ucu əyri dəyənək mənasını verir.

Yenisey çayı (Sibir) yaxınlığında yerləşən Krasnoyarsk vilayətində tapılmış bir qədim qayaüstü rəsmdə çövkən oynayan oyunçu təsvir edilmişdir. Örənqalada aparılmış arxeoloji qazıntılar zamanı üzərində çövkən oyunu təsvir edilmiş şirli qab tapılmışdır ki, bu da çövkən oyununun Beyləqan bölgəsində IX əsrdə geniş yayılmasına işarə edir. Bu da onu göstərir ki, çövkən oyunu qədimdir və oğuz yurdundan dünyanın bir çox yerlərinə yayılmışdır.

Beləliklə, çövkən (çovqan, çoğan və s.), sürpapaq, papaq oyunu, qız qov, atüstü güləş, baharbənd, yaylıq oyunları erkən və orta əsrlərdən başlayaraq Azərbaycan xalqının həyatında geniş yayılaraq milli idman növlərinə çevrilirdi. XII əsrdə Bağdadda keçirilmiş və 200-dən çox iştirakçı toplamış "Top Çövkən" yarışında Gəncəli Fəxrəddin öz Qarabağ atı ilə fərqlənmişdi. Çövkən oyunu Azərbaycandan İran, Gürcüstan, Türkiyə və s. ölkələrə də yayılaraq sevilmişdir. Bu oyuna bənzər "çxenburti" oyunu Gürcüstanda, "çovğan" – (fars. نآگوچ) İranda, "çoğan" Türkiyədə, müasir "polo" oyunu isə bir çox qərb ölkələrində (B.Britaniya, ABŞ, Argentina, İtaliya və s.) geniş yayılmışdır. Göstərilir ki, Azərbaycandan Hindistana keçmiş "çövkən" oyunu orada sevilmiş, sonralar Hindistanda çay plantasiyaları ilə məşğul olan ingilis zadəganlarının xoşuna gəlmiş və onlar bu oyunu 1869-cu ildə Avropaya gətirərək burada oxşar oyun "polo"-nu yaratmışlar. Britaniyaya səyahət zamanı polo oyunu ilə tanış olan amerikalı naşir və səyahətçi C.Bennet polo oyununu Amerikaya gətirmiş və Nyu-Yorkda ilk polo oyunlarını keçirmişdir. Bununla da çövkən Amerika qitəsinə də yol tapır. Bu gün Amerika qitəsində polo çox inkişaf etmişdir və buraya daxil olan ölkələrin komandaları dünyanın ən güclüləri sırasındadır.

Polo oyunu müasir idmanda çox böyük nüfuza malikdir və kübar idman növü hesab edilir. Polo 1900-cü ildə Olimpiya oyunlarının proqramına daxil edilmiş və bu 1936-cı ilə kimi davam etmişdir. Hal-hazırda polo üzrə nüfuzlu beynəlxalq yarışlar keçirilir.

Çox sevindirici haldır ki, Azərbaycan dövlətinin təşəbbüsü ilə Azərbaycanın Qarabağ atüstü oyunu – çövkən 2013-cü ildə YUNESKO-nun təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Bu əlamətdar hadisəyə həsr edilmiş və Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə 2013-cü ilin sentyabr ayında Bakıda "Polo vətənə qayıdır!" devizi altında beynəlxalq tədbir və polo üzrə dünya kubokunun final mərhələsi keçirilmişdir.

Milli-mənəvi və maddi dəyərlərimiz bizim milli kimliyimizin mücəssəməsidir. Xalqların dünyaya təqdimatı mədəniyyət üzərindən edilir. Hər bir xalqın atı da, və bu atların ifa etdiyi səhnələr də bu xalqın milli düşüncəsinin inikasıdır. Bu dəyərləri qoruyub-saxlamaq və gələcək nəsillərə ötürmək hər birimizin mənəvi borcudur!

PƏHLƏVANLIQ – ƏNƏNƏVİ ZORXANA OYUNLARI VƏ İDMAN NÖVLƏRİ

Xəyyam Orucov
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
https://doi.org/10.30546/19023.2026.1001.278

Zorxana qədim zamanlardan Azərbaycanda yayılmış ənənəvi idman meydanıdır. Azərbaycanın ən qədim milli idman növlərindən biri olmaqla yanaşı, xalqımızın milli-mənəvi dəyərlərini özündə əks etdirir. Məhz belə meydanlarda sonradan adını buradan götürən və "Zorxana" kimi tanınan idman yarışları keçirilirdi. "Zorxana" sözü iki hissədən ibarətdir: "zor" - güc, "xana" isə yer, məkan mənasını bildirir. Zorxanada bütün hərəkətlər zərb alətinin sədaları altında icra olunur. Bu aləti ifa edən şəxs mürşid adlanır.

Zorxana yalnız fiziki güc nümayişi deyil, eyni zamanda fəlsəfi düşüncə, təlim-tərbiyə və dinə ehtiram kimi keyfiyyətləri özündə birləşdirən bir idman növüdür. Bu baxımdan, o, Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsidir və milli idman növü kimi xüsusi əhəmiyyət daşıyır. Həmçinin, zorxana baxımlı və nadir idman növlərindən biri hesab olunur.

Tarixi faktlara əsasən, zorxana təxminən 700 il əvvəl əslən azərbaycanlı olan Puryayi Vəli (Məhmud ibn Vəliyuddin) tərəfindən sistemləşdirilərək idman növü formasına salınmışdır. O, Gəncə şəhərində anadan olmuş, sonralar isə Təbriz şəhərinə köçmüşdür. Zorxananın idman növü kimi təkmilləşdirilərək müasir dövrümüzə gəlib çatmasında onun böyük rolu olmuşdur.

Bakıda zorxana haqqında ən erkən məlumatlara XV əsrdə yaşamış Səfəvi müəlliflərinin əsərlərində rast gəlinir. Həmin dövrdə pəhləvan güləşçilər cəmiyyətdə böyük nüfuz qazanmış, xüsusi hörmətə malik olmuşlar. Dövlət idarəçiliyində "pəhləvanbaşı", yəni güləşçilərin başçısı vəzifəsi ayrıca mövcud olmuş və rəsmi status daşımışdır.

Zorxana idmanı ordunun hazırlıq sistemində də geniş tətbiq olunurdu. Ümumiyyətlə, zorxananın yaranması birbaşa hərbi döyüş hazırlığı ilə bağlıdır. Bu idman növündə istifadə edilən alətlər qədim döyüş silahlarının formalarını xatırladırdı. Həmin alətlərlə məşq edən əsgərlər və döyüşçülər fiziki güclərini artırır, dözümlülüklərini möhkəmləndirir və döyüş qabiliyyətlərini inkişaf etdirirdilər.

"Zorxana" termini məhz Səfəvilər dövründən etibarən məlumdur. Bu dövrdə gənclərin tərbiyəsi ilə məşğul olan xüsusi təşkilatlar fəaliyyət göstərmişdir. Həmin təşkilatların hər bir əyalətdə, vilayətdə, şəhərdə və hətta məhəllələrdə nümayəndələri olurdu. Bu nümayəndələr gəncləri bir yerə toplayaraq onların həm fiziki, həm də mənəvi inkişafı ilə məşğul olurdular.

Gənclərin məşq etməsi üçün xüsusi məkanlar - zorxanalar mövcud idi və burada bu idman növünə xas alətlərdən istifadə edilirdi. Təşkilatın mərkəzi "dəzgah" adlanırdı. Şəhər, mahal və vilayət pəhləvanları pəhləvanlıq şəhadətnamələrini məhz bu təşkilatdan alırdılar.

Zorxanaların yaranması ilə bağlı bəzi elmi əsaslara söykənməyən fikirlər də mövcuddur. Məsələn, C. Bağdadbəyov zorxana oyunlarının Əbu Əli İbn Sina tərəfindən "ixtira edildiyini" qeyd etmişdir. Onun fikrincə, İbn Sina zorxanaları tibbi məqsədlərlə qurmuş və bədən tərbiyəsi vasitəsilə müxtəlif xəstəliklərin müalicəsini həyata keçirmişdir. Doğrudur, Əbu Əli İbn Sinanın bədən tərbiyəsinin sağlamlıq üçün əhəmiyyətinə dair fikirləri onun elmi dünyagörüşünə uyğundur. Lakin zorxananın yaranmasının birbaşa onun adı ilə əlaqələndirilməsi mötəbər tarixi faktlarla təsdiqlənmir.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300